**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# 6117.01 - "HÜQUQİ PSİXOLOGİYA"
**ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında**
**doktoranturaya qəbul imtahanı üçün**

# PROQRAM

**BAKI-2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# 6117.01 - "HÜQUQİ PSİXOLOGİYA" ixtisası üzrə fəlsəfə doktoru proqramı əsasında doktoranturaya qəbul imtahanı üçün

# PROQRAM

Proqram Sosial Elmlər və Psixologiya fakültə
Elmi Şurasında 19 mart 2026-cı il tarixində təsdiq edilmişdir.
(protokol №7)

**BAKI-2026**

**Tərtib edənlər:** BDU-nun Psixologiya kafedrasının
dosenti, psixologiya üzrə fəlsəfə doktoru
Aydan Səməndərova

BDU-nun Psixologiya kafedrasının
dosenti, psixologiya üzrə fəlsəfə doktoru
Yamən Vəliyeva

**Elmi redaktor:** BDU-nun psixologiya kafedrasının müdiri,
professor, psixologiya elmləri doktoru
Səxavət Əliyeva

## MƏZMUNU

Ümumi qaydalar
Bölmə I. Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri
Bölmə II. Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar
Bölmə III. Fəlsəfə doktoru imtahanı proqramının məzmunu
Fəsil 1. Hüquq psixologiyasının predmeti, təşəkkülü və metodları
Fəsil 2. Hüquq fəaliyyətinin psixologiyası
Fəsil 3. Hüquqi şüurun psixoloji xüsusiyyətləri, strukturu və funksiyaları
Fəsil 4. Kriminal psixologiyasının predmeti və cinayi davranışın psixoloji tədqiqi metodları
Fəsil 5. Cinayətin psixoloji təhlili
Fəsil 6. Cinayətkarın şəxsiyyətinin psixologiyası
Fəsil 7. Qrup tərəfindən törədilmiş cinayətin psixologiyası
Fəsil 8. Viktimologiya. Cinayət qurbanının psixologiyası
Fəsil 9. İstintaq fəaliyyətinin psixoloji səciyyəsi
Fəsil 10. Hadisə yerinə baxışın psixologiyası
Fəsil 11. Axtarışın psixologiyası
Fəsil 12. Dindirmənin psixologiyası
Fəsil 13. Tanımanın psixologiyası
Fəsil 14. İstintaq eksperimentinin psixologiyası
Fəsil 15. İfadələrin yerində yoxlanılmasının psixologiyası
Fəsil 16. Əməliyyat-axtarış fəaliyyətinin psixoloji əsasları
Fəsil 17. Cinayət prosesində məhkəmə-psixoloji ekspertizası
Fəsil 18. Məhkəmə araşdırmasının psixoloji əsasları
Fəsil 19. İslah psixologiyasının əsas məsələləri
Fəsil 20. Məhkumun psixologiyası, onun islah və resosializasiyasının psixoloji xüsusiyyətləri
Bölmə IV. Tədris-metodik və informasiya təminatı
Bölmə V. Qiymətləndirmə meyarları
Bölmə VI. Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

**“Hüquq psixologiyası”** fənni 61 – Psixologiya ixtisası, 6117.01 “Hüquqi psixologiya” istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının əsas fənnidir. “Hüquq psixologiyası” fənninin öyrənilməsi bakalavr və magistratura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır.

Proqramın əsasını aşağıdakı fəsillərin əsas müddəaları təşkil edir: “Hüquq psixologiyasına giriş”, “Hüquqi şüurun psixoloji aspektləri”, “Kriminal psixologiya”, “İbtidai istintaqın psixoloji əsasları”, “Məhkəmə-psixoloji ekspertizasının aktual məsələləri”, “Məhkəmə fəaliyyətinin psixologiyası”, “İslah psixologiyası”.

“Hüquq psixologiyası” fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

“Hüquq psixologiyası” fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

“Hüquq psixologiyası” fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

“Hüquq psixologiyası” fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

**“Hüquqi psixologiya” ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi** hüquq sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin hüquqi fəaliyyətin psixoloji aspektlərini təhlil və tətbiq edə bilən, müasir elmi-metodik bilik və bacarıqlara yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin öyrənilməsinin yekunlarına əsasən onun nəzəri biliklərinin və praktik bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu -** Hüquq psixologiyası insan davranışının hüquqi aspektlərini, hüquqi münasibətlərdə iştirak edən şəxslərin psixoloji xüsusiyyətlərini və hüquqi qərar qəbuletmə proseslərini öyrənən elm sahəsidir.

Tədqiqatın məzmununu hüquq fəaliyyətinin psixologiyası, hüquqi şüurun strukturu və funksiyaları, cinayi davranışın psixologiyası, cinayətkar və qurbanın psixoloji xüsusiyyətləri, istintaq və əməliyyat-axtarış fəaliyyətinin psixoloji əsasları, məhkəmə fəaliyyəti və ekspertizası, eləcə də məhkumların islah və resosializasiyasının psixoloji aspektləri təşkil edir.

Hüquq psixologiyası hüquqi proseslərdə iştirakçıların motivasiyasını, qərar qəbuletmə və davranış modellərini təhlil etməyə, psixoloji faktorları müəyyən etməyə, riskləri proqnozlaşdırmağa və ekspert qiymətləndirmələrini aparmağa imkan verir.

**Tədqiqatın obyekti -** Hüquqi münasibətlərdə iştirak edən şəxslər, onların fərdi psixoloji xüsusiyyətləri, şəxsiyyət və davranış modelləri, hüquqi qərar qəbuletmə meylləri, cinayətkar və qurbanın psixoloji xüsusiyyətləri, hüquqşünas və məhkəmə iştirakçılarının professional-psixoloji keyfiyyətləri, istintaq və əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının psixoloji xüsusiyyətləri, habelə məhkumların islah və resosializasiya prosesində fərdi və qrup psixologiyasıdır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 6117.01 - “Hüquqi psixologiya” istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

- elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və imtahan prosesində 6117.01 – "Hüquqi psixologiya" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsil Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsilalanların doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi nəticəsində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu müəyyən etmək;

- doktorantın hüquq fəaliyyətinin psixologiyası, hüquqi şüurun strukturu və funksiyaları, cinayi davranışın və kriminal viktimologiyanın psixologiyası, istintaq və əməliyyat-axtarış fəaliyyəti, məhkəmə fəaliyyəti, eləcə də məhkumların islah və resosializasiyasının psixoloji əsasları haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

- doktorantın hüquqi qərar qəbuletmə prosesində iştirakçıların psixoloji analizini aparmaq, cinayətkar və qurbanın psixoloji xüsusiyyətlərini qiymətləndirmək, hüquqşünas və məhkəmə iştirakçılarının professional-psixoloji keyfiyyətlərini təhlil etmək bacarığını qiymətləndirmək;

- doktorantın hüquq psixologiyasının nəzəri və praktik metodlarını müstəqil tətbiq etmək, hüquqi proseslərdə iştirakçıların psixoloji vəziyyətini təhlil etmək, əldə olunan bilikləri ekspert və məhkəmə praktikalarında tətbiq etmək, elmi nəticələri qiymətləndirmək və hüquq psixologiyasının metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan bacarıqların üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

- müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar:**

- hüquq psixologiyası sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti;

**Peşəkar bacarıqlar:**

- hüquq psixologiyası sahəsində nəzəri və praktik tədqiqatların metodologiyasının mənimsənilməsi;
- elmi tədqiqatlarda hüquq psixologiyasının nəzəri və praktik əsaslarından istifadə etmək qabiliyyəti;
- hüquqi proseslərdə iştirakçıların psixoloji təhlilini aparmaq, cinayətkar və qurbanın psixoloji xüsusiyyətlərini qiymətləndirmək və məhkəmə praktikalarında tətbiq etmək bacarığı.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- hüquq psixologiyası sahəsində elmi-tədqiqat fəaliyyətinin əsas metodları və prinsipləri;
- hüquq fəaliyyəti, hüquqi qərar qəbuletmə, cinayi davranış və kriminal viktimologiya sahələrində nəzəriyyələr və eksperimental tədqiqat üsulları;
- hüquq psixologiyası tədqiqatlarının metodoloji xarakteristikaları;
- hüquqi proseslərdə psixoloji tədqiqatların planlaşdırılması və həyata keçirilməsi;
- hüquq psixologiyasında inkişaf mərhələləri və nəzəri əsaslar;

- hüquqi şüurun, şəxsiyyətin və ünsiyyətin psixoloji xüsusiyyətləri, idrak və emosional proseslər;

- fərdi psixoloji xüsusiyyətlərin hüquq praktikası və kriminal proseslərdə rolu;

- müasir hüquq psixologiyası nəzəriyyələri, tədqiqat problemləri və onların metodoloji əsasları.

**bacarıqlar:**

- hüquq psixologiyası sahəsində nəzəriyyələri və metodları praktiki tədqiqatlarda tətbiq etmək;

- hüquqi proseslərin iştirakçılarını (cinayətkar, qurban, şahid, hüquqşünas və s.) psixoloji təhlil etmək;

- cinayi davranışın və kriminal hadisələrin psixoloji mexanizmlərini təhlil etmək;

- hüquq psixologiyası sahəsində müasir metodlardan və informasiya texnologiyalarından istifadə edərək tədqiqat aparmaq;

- hüquqi qərar qəbuletmə və məhkəmə proseslərində iştirakçıların psixoloji xüsusiyyətlərini qiymətləndirmək;

- ekspertiza və hüquq psixologiyası nəticələrini məntiqi şəkildə yazılı və şifahi təqdim etmək;

- fənlərarası sahələrdə yaranan problemlərin həlli üçün perspektivli nəzəri-metodoloji yanaşmaları inkişaf etdirmək.

**vərdişlər:**

- hüquq psixologiyası sahəsində müstəqil nəzəri və empirik tədqiqat aparmaq;

- müasir elmi nailiyyətləri, o cümlədən kriminal psixologiya və məhkəmə psixologiyası sahələrində tətbiq nəticələrini tənqidi qiymətləndirmək;

- hüquqi proseslərdə iştirakçıların psixoloji vəziyyətini təhlil etmək və proqnozlaşdırmaq;

- şifahi və yazılı nitqini məntiqi, əsaslandırılmış və aydın formada təqdim etmək;

- tədqiqat işinin müxtəlif metodlarını tətbiq etmək və nəticələri statistik üsullarla təhlil etmək;

- hüquq psixologiyası üzrə nəzəri bilikləri praktiki fəaliyyətə çevirmək;

- yerli və xarici alimlərin ən əhəmiyyətli konseptual işlərini qiymətləndirmək və müqayisəli təhlil aparmaq.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

### Fəsil 1. Hüquq psixologiyasının predmeti, təşəkkülü və metodları

Hüquq psixologiyasının predmeti. Hüquq psixologiyasının sistemi: ümumi və xüsusi hissə. Hüquq psixologiyasının vəzifələri. Hüquq psixologiyasının əsas sahələri.

Hüquq psixologiyasının bir elm kimi təşəkkülü. Hüquq psixologiyasının inkişaf mərhələləri: 1) Hüquq psixologiyasının ekən inkişaf mərhələsi (XIX əsrin əvvəlləri). Cinayətkarların ilkin tipologiyası. Şahid ifadələrinin qiymətləndirilməsi: Laplasın reallığa uyğunluq kateqoriyası. İlkin psixoloji tövsiyələrin istintaq və məhkəmə işinə tətbiqi. Tarixi perspektivdə psixologiyanın hüquq praktikasına təsiri. Alman alimləri Hofbaur və Fridrixin töhfələri.

2) Hüquq psixologiyasının müstəqil elm kimi inkişaf mərhələsi (XIX əsrin sonu, XX əsrin əvvəlləri). Cinayətkarlıq nəzəriyyələri: sosioloji, sosial-psixoloji və kriminoloji nəzəriyyələrin tənqidi təhlili. Antropoloji məktəb. Çezare Lombrozo və "anadangəlmə cinayətkar" nəzəriyyəsi. Endokrin və əqli gerilik nəzəriyyələri. Cinayətkarlığa psixoanalitik yanaşma. Şahid ifadələrinin eksperimental tədqiqinin ilkin cəhdləri. Bine, Ştern, Klapered, List və s.

3) Hüquq psixologiyasının müasir inkişaf mərhələsi (XX əsrin ortalarından bu günə kimi). Müasir dövrdə hüquq psixologoyasının əsas inkişaf istiqamətləri.

Hüquq psixologiyasının tədqiqat metodları və onların təsnifatı. Cinayətkarın şəxsiyyətinə psixoloji təsir metodları. Cinayətkarın şəxsiyyətinin tədqiqinin proyektiv metodikaları. Məhkəmə-psixoloji ekspertizasının metodları.

**Fəsil 2. Hüquq fəaliyyətinin psxologiyası**

Hüquqşünaslıq fəaliyyəti və ona verilən tələblər. Hüquqşünas fəaliyyətinin səmərəliliyi və əsas meyarları. Hüquqşünas şəxsiyyətinin formalaşmasının psixoloji aspektləri. Hüquqşünas şəxsiyyətinin psixologiyası. Hüquqşünasın peşə fəaliyyətində ünsiyyət. Hüquq peşələrinin professioqrammasının tərtibi. Müstəntiqin peşə keyfiyyətlərinin tərkib hissələri. Hakimin peşə keyfiyyətlərinin başlıca cəhətləri. Prokurorun peşə keyfiyyətlərinə verilən psixoloji tələblər. Vəkilin peşə keyfiyyətlərinin psixoloji səciyyəsi. Hüquqşünasın professional yararlılığını xarakterizə edən amillər. Hüquq-mühafizə orqanlarına seçilən namizədlərin peşə yararlılğının qiymətləndirilməsinin psixodiaqnostik metodikaları.

**Fəsil 3. Hüquqi şüurun psixoloji xüsusiyyətləri, strukturu və funksiyaları**

Hüquqi şüurun psixoloji səciyyəsi. Hüquqi şüurun mahiyyəti və tərifi. Hüquqi şüurun formalaşmasında psixoloji faktorlar.

Hüquqi şüurun əsas tərəfləri (struktur komponentləri): koqnitiv-idraki, emsional və fəaliyyət yönümlü tərəf. Hüquqi şüurun funksiyaları: tənqidi və analitik, əxlaqi və sosial-normativ tənzimləmə, hüquqi davranışı proqnozlaşdırma və istiqamətləndirmə funksiyaları.

Hüquqi şüurun formaları və səviyyələri. Şəxsi və kollektiv hüquqi şüur. Elementar və ali hüquqi şüur. Hüquqi şüur və cinayət şüuru anlayışı. Hüquqi şüurun hüquqi qərar qəbul etmədə rolu. Hüquqi davranışın psixoloji tənzimlənməsi. Hüquqi normların internalizasiyası və adaptasiyası.

**Fəsil 4. Kriminal psixologiyanın predmeti və cinayi davranışın psixoloji tədqiqi metodları**

Kriminal psixologiyanın predmeti. Cinayi davranışın psixoloji mexanizmləri və kriminal psixologiyada tətbiq edilən əsas empirik, analitik və ekspert metodları. Cinayət statistikasının psixoloji təhlili. Anket və sorğu metodları. Dövri mətbuat və açıq mənbələrin psixoloji analizi. Ekspert qiymətləndirmə metodu. Cinayət işlərinin psixoloji təhlili. Müşahidə metodu. Asılı olmayan xarakteristikaların ümumiləşdirilməsi metodu. Sosiometriya. Məhkəmə-psixoloji ekspertizasının nəticələrindən istifadə. Eksperiment.

**Fəsil 5. Cinayətin psixoloji təhlili**

Hüquqi və qeyri-hüquqi davranış. Normadan kənara çıxan davranış və cinayət. Cinayi davranışın psixoloji səciyyəsi. Cinayi davranışın tipologiyası. Cinayi davranışın sosial-psixoloji səciyyəsi.

Cinayi davranışın motivi və məqsədi. Cinayi davranışın hüquqi və psixoloji motivlərinin tipologiyası. Cinayətin törədilmə şəraiti, səbəbi və vasitələri.

Cinayi davranış və psixi anomaliya. Psixi anomaliyaların kriminogenliyi problemi. Psixi anomaliyaların strukturu. Psixi anomaliyalı şəxslərin cinayi davranışının motivləri.

**Fəsil 6. Cinayətkarın şəxsiyyətinin psixologiyası**

Hüquq psixologiyasında cinayətkarın şəxsiyyəti anlayışı. Cinayətkar şəxsiyyətin təşəkkülünün əsas amilləri. Cinayətkar şəxsiyyətinin strukturu. Cinayətkar şəxsiyyətin tipologiyası. Cinayətkarın şəxsin psixoloji əlamətləri.

Müxtəlif kateqoriyadan olan cinayətkarların psixologiyası. Tamahkar, zorakı, tamahkar-zorakı və cinsi cinayətkarlar. Tamahkar cinayətkarların tipologiyası. Minkovskiyə görə cinayətkarların tipologiyası. Sərvət dəyərlərinin məzmununa görə cinayətkarların tipologiyası. Cinayətkar şəxsiyyətin sosial-adaptiv və sosial-dezadaptiv tipi. Qatilin psixologiyası. Mütəşəkkil və qeyri-mütəşəkkil qatilin şəxsiyyətinin psixoloji xüsusiyyətləri. Ehtiyatsızlıqdan cinayət törətmiş şəxslərin psixoloji xüsusiyyətləri. Qadın cinayətkarların psixoloji xüsusiyyətləri. Komputer cinayətkarlığının psixologiyası. Kibercinayətlərin psixologiyası. Yetkinlik yaşına çatmayan qanunpozanların psixoloji xüsusiyyətləri. Yeniyetmələrin qrup halında cinayi davranışının sosial-psixoloji xüsusiyyətləri. Psixi anomaliyalı yetkinlik yaşına çatmayan qanunpozanların tipologiyası.

**Fəsil 7. Qrup tərəfindən törədilmiş cinayətin psixologiyası**

Sosial qruplar kriminal-psixoloji tədqiqatların predmeti kimi. Qrup və cinayətkar qrupun təşəkkülünün sosial-psixoloji xüsusiyyətləri. Cinayətkar qrupun strukturu. Cinayətkar qrupların təsnifatı. Cinayətkar qrupda rol, mövqe və gözləmələr, onların iyerarxiyası. Qrup və lider. Cinayətkar qrupa rəhbərliyin psixoloji əsasları. Cinayətkar qrup liderlərinin funksiyaları və tipləri. Cinayətkar qrupda dinamik proseslər. Cinayətkar qrupda konfliktlər.

**Fəsil 8. Viktimologiya. Cinayət qurbanının psixologiyası**

Kriminal viktimologiya cinayət qurbanı haqqında təlim kimi. Viktimologiyanın psixoloji məsələləri. Müasir kriminal viktimologiyada psixoloji tədqiqatın əsas istiqamətləri. Hüquq psixologiyasında "qurban" problemi. Qurban və cinayətdən zərərçəkmiş anlayışı. Viktimoloji tədqiqatların strukturunda qurban davranışının psixologiyası. Cinayət qurbanlarının tipologiyası. D.Rivmana görə qurbanların tipologiyası: aktiv, ehtiyatsız, passiv, təsadüfi, psevdo qurban. Potensial qurbanın təhlükəsizliyini müəyyən edən amillər. Viktimlik və viktimizasiya. Qurbanın psixoloji xüsusiyyətləri. "Cinayətkar-qurban" münasibəti. Qurbanın cinayətkar qəsdlərə qarşı durmaq və müqavimət göstərmək qabiliyyəti. Cinayətin törədildiyi an qurbanın davranış formaları. Cinayətin və onun nəticələrinin qurbanın şəxsiyyətinə təsiri. Cinayət zamanı zərərçəkmişlərin psixi vəziyyəti və onların ifadələrin formalaşmasına təsiri. Zərərçəkmiş şəxsin psixoloji səciyyəsi. Zərərçəkmişin şəxsiyyətinin tədqiqi. Zərərçəkmiş şəxsin ifadəsinin psixoloji təhlili.

**Fəsil 9. İstintaq fəaliyyətinin psixoloji səciyyəsi**

İstintaq fəaliyyətinin psixoloji aspektləri. İstintaq fəaliyyətinin planlaşdırılmasının psixoloji cəhətləri. İstintaq şəraiti və onun psixoloji səciyyəsi. Əlverişli və əlverişsiz istintaq şəraiti. Münaqişəli və münaqişəsiz istintaq şəraiti. Müstəntiq fəaliyyətinin psixoloji səciyyəsi. Müstəntiqin peşə fəaliyyətinin tərkib hissələri. Müstəntiqin şəxsiyyəti və idrak fəaliyyəti. Müstəntiqin konstruktiv fəaliyyəti. Müstəntiqin kommunikativ fəaliyyətinin psixologiyası. Müstəntiqin təşkilatçılıq və təsdiqedici fəaliyyəti.

**Fəsil 10. Hadisə yerinə baxışın psixologiyası**

Hadisə yerinə baxışın psixoloji səciyyəsi. Hadisə yerinə baxış zamanı müstəntiqin fikri fəaliyyətinin xüsusiyyətləri. Hadisə yerinin müayinə üsulları. Cinayətin maddi və ideal izləri. Cinayət hadisəsinin fikri rekonstruksiyası. Cinayətin maddi izlərinə əsasən cinayətkarın şəxsiyyətinin xüsusiyyətlərinin, məqsədinin, motivinin və cinayəti törətmə vasitələrinin müəyyən edilməsi. Hadisə yerində cinayətin izlərinin maskirovkasının psixoloji xüsusiyyətləri. Cinayətin izlərinin gizlədilməsinin tipik üsulları. Bir cinayəti digər cinayətlə ört-basdır etmə. Cnayəti qeyri-kriminal, bədbəxt hadisə kimi qələmə vermə. Cinayətin ayrı-ayrı şəraitinin saxtalaşdırılması.

**Fəsil 11. Axtarışın psixologiyası**

Axtarışın psixologiyası və əsas metodları. Müstəntiqin axtarış fəaliyyətinin psixoloji xüsusiyyətləri. Gizlədənin və axtaranın psixologiyası. Müstəntiq tərəfindən axtarılan şəxsin davranışının psixoloji təhlili. Obyektlərin gizlədilməsi yollarının seçilməsinə təsir edən psixoloji amillər. Axtarışın növləri və onların psixoloji səciyyəsi.

Mənzilində və digər yerdə axtarış aparılan şəxsin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması. Müstəntiqin və axtarış aparılan şəxsin müşahidəçiliyi. Axtarış aparılan şəxsin axtaranın hərəkətlərinə reaksiyasının axtarılan predmetin aşkar edilməsində istifadəsinin psixoloji əsasları. Axtarış aparılan şəxsin davranışının axtarışın istiqamətinin müəyyənləşdirilməsində əhəmiyyəti.

**Fəsil 12. Dindirmənin psixologiyası**

Dindirmənin ayrı-ayrı mərhələlərinin psixoloji səciyyəsi. Dindirmə zamanı psixoloji amillərin nəzərə alınması. Dindirmə zamanı psixoloji kontakt anlayışı. Dindirmə zamanı kommunikativ proseslərin məkan təşkili. Sualların növləri, onların dindirilən şəxsin psixikasına təsir xüsusiyyətləri. Dindirmə zamanı tətbiq edilən metodlar: Dindirilənlərin yaddaşının aktivləşdirilməsi üsulları. Dindirilən şəxsin psixi vəziyyətinin dinamikasının öyrənilməsi və istifadə edilməsi. Dindirmə zamanı psixi təsir vasitələrindən istifadə edilməsi.

Təqsirləndirilənin və şübhəli şəxslərin dindirilməsinin psixoloji xüsusiyyətləri. Təqsirləndirilənin və şübhəli şəxslərin psixi xüsusiyyətləri haqqındakı məlumatdan istifadə edilməsi.

Zərərçəkmişin dindirilməsinin psixoloji xüsusiyyətləri. Zərərçəkmişin cinayət əməli törədilən andakı vəziyyət və davranışının aşkar edilməsi. Zərərçəkmişin törədilmiş cinayətə münasibətinin və təsəvvürlərinin şüurda rekonstruksiyasının psixoloji xüsusiyyətləri. Zərərçəkmişin fərdi-psixoloji xüsusiyyətləri.

Şahidlərin dindirilməsinin psixoloji xüsusiyyətləri. Şahidlərin sensor-perseptiv, mnemik və fikri fəaliyyətinin fərdi-tipoloji və yaş xüsusiyyətləri. Şahidin psixi inkişaf səviyyəsinin nəzərə alınması. “Psixi” və “fiziki” çatışmazlıq anlayışının psixoloji mahiyyəti və şahidlərin dindirilməsində nəzərə alınması.

Yetkinlik yaşına çatmayan şahidlərin dindirilməsinin psixoloji xüsusiyyətləri. Yetkinlik yaşına çatmayan zərərçəkmişin dindirilməsinin psixoloji xüsusiyyətləri.

İfadələrinin formalaşması mərhələləri. İfadələrin doğruluğuna və tamlığına təsir edən psixoloji amillər. Yaddasaxlamanın, yadasalmanın, unutmanın və qavrayışın xüsusiyyətləri, onların ifadənin doğruluğuna və tamlığına təsiri. Qavrayışın tam və dəqiq olmasını şərtləndirən subyektiv və obyektiv amillər.

Yalan ifadələrin diaqnostikası. Yalan ifadələrin diaqnostikası məqsədi ilə istifadə edilən metodlar. Yalan detektoru. Yalan detektorunda sınağın əsas mərhələləri.

**Fəsil 13. Tanımanın psixologiyası**

Tanımanın psixoloji xüsusiyyətləri. Ümumi və differensial, simultan və suksessiv tanıma. Tanıma təqdim edilmiş obyektin əvvəllər yaranmış psixi obrazla tutuşdurulması prosesi və nəticəsi kimi. Tanımaya təqdimetmənin növləri. Predmetlərin və onların təsvirinin tanınmasının psixoloji xüsusiyyətləri. Şəxslərin tanıma üçün təqdim edilməsi. İnsanın və onun fotoşəklinin qavranılmasının və tanınmasının xüsusiyyətləri. Yanlış tanımanın tipik səhvləri. Yanlış tanımanın aradan qaldırılması yolları. Qəsdən tanıma və onun aşkar edilməsi. Səsə və nitq xüsusiyyətlərinə görə tanımanın psixoloji səciyyəsi.

**Fəsil 14. İstintaq eksperimentinin psixologiyası**

İstintaq eksperimentinin psixoloji xüsusiyyətləri. İstintaq eksperimentinin keçirilməsinə verilən tələblər. İstintaq eksperimenti iştirakçılarının psixi xüsusiyyətlərinin müəyyən edilməsi. İnsanın psixoloji imkanlarına təsir göstərən halların (adaptasiya, sensibilizasiya, desensibilizasiya, stenik və astenik emosiyalar, qavrayışın akonstantlığını əmələ gətirən amillərin) nəzərə alınması.

İstintaq eksperimenti vasitəsi ilə yoxlanılan və hərəkətlərdə təzahür edən qabiliyyətlərin, bilik, bacarıq və vərdişlərin müəyyən edilməsi.

**Fəsil 15. İfadənin yerində yoxlanılmasının psixologiyası**

İfadəsi yoxlanılan şəxsin topoqrafik təsəvvürünün məkan bələdliyinin statistik və dinamik qlazomerinin müəyyən edilməsi. Mnemik fəaliyyətin fəallaşdırılması. Baş vermiş hadisələrin ardıcıllığının rekonstruksiyası üçün hadisə yerinin "dayaq məntəqələrinin" istifadə edilməsi.

**Fəsil 16. Əməliyyat-axtarış fəaliyyətinin psixoloji əsasları**

Əməliyyat-axtarış fəaliyyətinin psixologiyası. Əməliyyat-axtarış fəaliyyəti psixologiyasının məqsəd və vəzifələri. Əməliyyat-axtarış fəaliyyətinin və istintaq fəaliyyətinin müqayisəli psixoloji səciyyəsi. Əməliyyat-axtarış fəaliyyəti iştirakçılarının psixoloji xüsusiyyətləri. Əməliyyatçının peşə keyfiyyətlərinin psixoloji səciyyəsi. Əməliyyat-axtarış tədbirləri və onların ümumi psixoloji səciyyəsi. Əməliyyat işçisini maraqlandıran informasiyanın əldə edilməsi metodları.

**Fəsil 17. Cinayət prosesində məhkəmə-psixoloji ekspertizası**

Məhkəmə-psixoloji ekspertizasının predmeti, obyekti və vəzifələri. Məhkəmə-psixoloji ekspertizasının növləri. Məhkəmə-psixoloji ekspertizasının səlahiyyətləri. Məhkəmə-psixoloji ekspertizasının təyin edilməsinin əsasları, təşkili və keçirilməsi. Ekspert rəyi və onun sübuti əhəmiyyəti. Psixi vəziyyətin məhkəmə-psixoloji ekspertizası. Fizioloji affektin məhkəmə-psixoloji ekspertizası. Fizioloji affektin mexanizmi, mərhələləri və onun təzahürünə təsir edən amillər. Fizioloji və patoloji affektin müqayisəli təhlili. Köməksiz vəziyyətin məhkəmə-psixoloji ekspertizası.

Yetkinlik yaşına çatmayanların iş üzrə düzgün ifadə vermək qabiliyyətinin məhkəmə-psixoloji ekspertizası. Fərdi-psixoloji xüsusiyyətlərin məhkəmə-psixoloji ekspertizası. Cinayətkar qrupun məhkəmə-psixoloji ekspertizası.

**Fəsil 18. Məhkəmə araşdırmasının psixoloji əsasları**

Məhkəmə araşdırmasının mərhələlərinin psixoloji səciyyəsi. Təqsirləndirilənin şəxsiyyətinin xüsusiyyətlərinin və cinayət hadisəsinin psixoloji cəhətlərinin müəyyən edilməsində məhkəmənin fəaliyyəti.

Hakimin, ittihamçının və vəkilin fəaliyyətinin kommunikativ və idraki cəhətləri. Hakimin, ittihamçının və vəkilin şəxsi keyfiyyətləri və təfəkkürünün xüsusiyyətləri.

Prokurorun məhkəmədəki fəaliyyətinin psixologiyası. Prokurorun nitqi. Vəkilin məhkəmədəki fəaliyyətinin psixologiyası və onun nitqinin xüsusiyyətləri. Təqsirləndirilənin psixoloji xarakteristikası. Təqsirləndirilənin son sözü.

Hökmün çıxarılmasının psixologiyası. Hökmün obyektivliyinə təsir göstərən psixoloji amillərin aradan qaldırılması. Cinayi davranışın qiymətləndirilməsinin psixoloji əsasları və cəzanın təyin edilməsi.

**Fəsil 19. İslah psixologiyasının əsas məsələləri**

İslah psixologiyasının predmeti. İslah psixologiyasının əsas vəzifələri: məhkumların psixoloji diaqnostikası; cəzaların icrası zamanı psixoloji dəstək; təkrar cinayətlərin profilaktikası; işçi heyətinin fəaliyyətinə psixoloji dəstək.

İslah psixologiyasının metodları. Diaqnostik metodlar: müşahidə, söhbət və intervyu, psixoloji testləşdirmə, məhkumun şəxsi işinin təhlili. Korreksiya metodları: fərdi konsultasiya, qrup psixokorreksiyası, sosial davranış treninqləri, koqnitiv-davranış porqramı. Profilaktik metodlar: özünütənzimləmə bacarıqlarının inkişaf etdirilməsi, mediasiya və bərpaedici təcrübələr. Proqnostik metodlar: residiv riskinin qiymətləndirilməsi, məhkəmə və probasiya orqanları üçün psixoloji qiymətləndirmə və rəy.

İslah psixologiyasının elmlər sistemində yeri. İslah psixologiyasının müasir problemləri.

**Fəsil 20. Məhkumun psixologiyası, onun islah və resosializasiyasının psixoloji xüsusiyyətləri**

Məhkum şəxsiyyəti və onun psixoloji xüsusiyyətləri. Cinayətkarın islah edilməsi onun şəxsiyyətinin strukturunun yenidən qurulması kimi. Məhkumun cəzaçəkmə müəssisəsinə adaptasiyasının psixoloji səciyyəsi. Məhkumların adaptasiyasının obyektiv və subyektiv psixoloji amilləri. Neqativ və pozitiv adaptasiya. Cəzaçəkmə müddətinin müxtəlif mərhələlərində məhkumların adaptasiyasının dinamikası.

Məhkumların islah edilməsinin və resosializasiyasınn psixoloji şərtləri. Məhkumların islah edilməsinin meyarları və dərəcəsi. Rejimin məhkumlara təsirinin effektivliyinin psixoloji şərtləri. Məhkumlara psixoloji təsir üsulları. Davranışın asosial stereotiplərinin aradan qaldırılması.

Məhkumlar qrupunun psixoloji xarakteristikası. Pozitiv, neqativ və qeyri-müəyyən istiqamətli məhkumlar qrupu. Məhkumlar qrupunun strukturu və funksional təşkili.

Məhkumların azadlıqda yaşamağa psixoloji hazırlığı. Mənəvi, psixoloji və praktik hazırlıq. Məhkumların azadlıqdakı həyata hazırlanmasının proqram və metodları. Məhkumların xarakteristikasının tərtib edilməsi.

## IV BÖLMƏ. TƏDRİS-METODİK VƏ İNFORMASİYA TƏMİNATI

**Əsas ədəbiyyat**


1.Əliyev B.H., Bayramov Ə.S. Hüquq psixologiyası. Bakı, 2012

2.Əliyev B.H., Səməndərova A.F. Hüquq psixologiyasının tədqiqat metodları. Bakı, 2010

3.Əsədov B.M., Qəmərlinski R.C. Məhkəmə-psixiatrik ekspertizasının əsasları. Bakı, 2010

4.Hüseynova G.Q., Vəliyeva Y.Ə. Ümumi psixologiya. Emosiya (I hissə). Bakı, 2025

5.Vəliyeva Y.Ə, Hüseynova G.Q. Ümumi psixologiya. Emosiya (II hissə). Bakı, 2026

6.Александров Ю.И. Психология в уголовном процессе. СПб.: Лань, 2023.

7.Еникеев М.И. Основы юридической психологии. М: Норма, 2021.

8.Журавлев А.Л., Еникеев М.И. Юридическая психология: современный курс. СПб.: Питер, 2022.

9. Киселева Т.Г. Психология допроса и поведения обвиняемого. М.: Проспект, 2020.

10. Колесникова И.Н. Психология преступного поведения. М.: Академический проект, 2022.

11. Кудрявцев В.Н. Психология и право: современные направления исследований. М.: Инфра-М, 2023.

12. Ривман Д. В. Криминальная виктимология. СПб.: Питер, 2002.

13. Сафуанов Ф.С. Судебно-психологическая экспертиза: теория и практика. М.:Норма, 2023.

14. Тихомирова О.В. Юридическая психология: учебник для вузов. Москва: Юрайт, 2024.

15. Ушатиков А.И., Казак Б.Б., Аксенова Г.И. Пенитенциарная психология. М.:Проспект, 2021

16. Cramer, R.J., Brodsky, S.L. Essentials of Forensic Psychological Assessment. Wiley, 2022.


**Əlavə ədəbiyyat**


1. Зырянова М.В. Юридическая психология: практикум. Екатеринбург: УрФУ, 2021.
2. Мельникова Г.В. Психология свидетельских показаний и допроса. М.: Инфра-М, 2023.
3. Bartol, C.R., Bartol, A.M. Introduction to Forensic Psychology. New York: Routledge, 2024.
4. Brown, J., Campbell, E. The Cambridge Handbook of Forensic Psychology. Cambridge UP, 2021.
5. Canter, D. Criminal Psychology: Topics in Applied Psychology. Routledge, 2023.
6. Gadlin, H., Saxe, L. Legal Psychology: Understanding Law through Behavioral Science. Princeton UP, 2024.
7. Granhag, P.A., Vrij, A., Verschuere, B. (eds.) Detecting Deception: Current Challenges and Cognitive Approaches. Wiley-Blackwell, 2023.
8. Kapardis, A. Psychology and Law: A Critical Introduction. Cambridge University Press, 2022.
9. Pozzulo, J., Bennell, C., Forth, A. Forensic and Legal Psychology. Worth Publishers, 2023.

10. Towl, G., Crighton, D.A. Forensic Psychology. Wiley-Blackwell, 2021.
11. Vrij, A. Detecting Lies and Deceit: Pitfalls and Opportunities. Routledge, 2020.

## V BÖLMƏ. QİYMƏTLƏNDİRMƏ MEYARLARI

### Metodik göstərişlər

**Doktorantların 61 -** "Psixologiya" hazırlıq istiqaməti, 6117.01 "Hüquqi psixologiya" ixtisas fənni üzrə ali ixtisaslı kadrların hazırlanması üçün fəlsəfə doktoru imtahanı yazılı formada aparılır. Doktorantın fəlsəfə doktoru imtahanına hazırlığı hüquq psixologiyası moduluna aid mühazirələr və praktiki məşğələlər dövründə, həmçinin auditoriyadan kənar saatlarda müstəqil iş çərçivəsində həyata keçirilir.

**Qiymətləndirmə meyarları** İmtahan zamanı doktorant proqramda nəzərdə tutulmuş suallara ətraflı cavab verməlidir. Komissiya əlavə suallar da verə bilər. Cavab zamanı doktorant aşağıdakı bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:

- hüquq psixologiyası nəzəriyyələri və eksperimental tədqiqat üsullarına aid biliklər; hüquqi şüur, şəxsiyyət, ünsiyyət, cinayi davranış və kriminal viktimologiya sahəsində nəzəri əsaslar; hüquq psixologiyası tədqiqatlarının metodoloji xarakteristikaları;
- hüquqi proseslərdə və məhkəmə praktikası çərçivəsində aparılan tədqiqatlarda istifadə olunan metodların və müasir texnologiyaların tətbiqi; cinayi davranış, qurban davranışı və iştirakçıların psixoloji xüsusiyyətlərini tədqiq edərkən hüquq psixologiyasının nəzəri əsaslarından istifadə bacarığı; eksperimental və müşahidə tədqiqatları zamanı əldə olunan nəticələri təhlil edib nəzəriyyələrə söykənərək izah etmək; hüquq psixologiyası sahəsində mövcud problemlərə dair əsaslandırılmış şəxsi fikri ifadə etmək; elmi-tədqiqat fəaliyyətinə aid məlumatların toplanması, təhlili, analizi və təsnifatını həyata keçirmək;
- bu sahədə yaranmış mövcud elmi-metodoloji yanaşmaları təhlil etmək; hüquq psixologiyası tədqiqat metodlarının bu və ya digər məsələləri barədə şəxsi mövqeyini əsaslandırmaq;
- cavabın tamlığı doktorantın proqram üzrə nəzərdə tutulmuş təhsil nəticələrinə nə dərəcədə uyğunluğunu əks etdirir.

Cavabın tamlığı təhsilin planlaşdırılan nəticələrinin qiymətləndirilməsi göstəricilərinə əsasən təyin edilir.

Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanını qəbul edən imtahan komissiyasının üzvləri **aşağıdakı meyarları rəhbər tutaraq** imtahan verən şəxsin hər bir suala cavabını biliklərin qiymətləndirilməsi üçün **50 ballıq sistem əsasında "əla" (45-50 bal), "yaxşı" (35-44 bal), "kafi" (25-34 bal), və ya "qeyri-kafi" (0-24 bal)** kimi qiymətləndirirlər. Mübahisəli vəziyyət yaranan halda imtahan komissiyasının Sədri həlledici səsə malikdir.

| Ballar | Qiymændirmənin meyarları |
|---|---|
| 1 | 2 |
| "əla" (45-50 bal) | Doktorant anlayışlar aparatını dərindən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu tam açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nəzəri problemləri, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında dərin biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla hərtərəfli tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası |

| | |
|---|---|
| | xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri tənqidi mövqedən qiymətləndirə bilir. |
| "yaxşı" (35-44 bal) | Doktorant zəruri anlayışlar aparatını mənimsədiyini nümayiş etdirərək sualın məzmununu açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nəzəri problemlər, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə əsas elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla kifayət qədər tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilir. |
| "kafi" (25-34 bal) | Doktorant zəruri anlayışlar aparatını qismən mənimsədiyini nümayiş etdirərək sualın məzmununu əsasən açıqlayır. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nəzəri problemləri, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında ümumi biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla yarımçıq tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri lazımınca qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirməkdə çətinlik çəkir. |
| "qeyri-kafi" (0-24 bal) | Doktorant sualın məzmununu kifayət qədər açıqlamır və anlayışlar aparatını mənimsədiyini nümayiş etdirə bilmir. Doktorant elmi ixtisas üzrə yerli və xarici doktrinalar, hüquq psixologiyası elminin tarixi, aktual nəzəri problemləri, bu sahə üzrə ixtisasın müvafiq nomenklaturunun şifrinə daxil olan yanaşı elmi fənlər üzrə ayrı-ayrı elmi məktəblər və elmi əsərlər haqqında minimum biliklərə malik olduğunu, həmçinin dissertasiyanın mövzusuna və ona yaxın mövzulara aid ədəbiyyatla minimum tanış olduğunu göstərir. Doktorant ixtisasın konseptual problemləri üzrə müxtəlif doktrinal mövqeləri qiymətləndirməyi, həmçinin fənlərarası xarakterli mübahisəli problemlər haqqında öz fikirlərini əsaslandırmağı bacarmır. Doktorant bu sahədə müasir nəzəri və praktik problemləri qiymətləndirə bilmir. |